**Azərbaycan Dəmir Yolları QSC-nin Biləcəri qəsəbəsindəki Mərkəzi Dəmir Yol Xəstəxanasının ötən il 50 yaşı tamam olmuşdur. Xəstəxana XX əsrin sonlarına qədər ölkənin qabaqcıl səhiyyə ocaqlarından biri kimi böyük inkişaf yolu keçmiş, burada çalışan yüksək ixtisaslı tibb heyəti dəmiryolçuların və onların ailə üzvlərinin, yerləşdiyi ərazidəki sakinlərin sağlamlıqlarının qorunmasına böyük diqqət və qayğı ilə yanaşmışdır. Məhz həmin illərdə xəstəxana müasir tibbi avadanlığın, yeni diaqnoz və müalicə üsullarının tətbiqinə görə respublikanın ən qabaqcıl səhiyyə müəssisələri ilə rəqabət apara bilmişdir. Lakin ötən əsrin 90-cı illərindən başlayaraq bu qabaqcıl tibb müəssisəsinin fəaliyyəti zəifləmişdir.**

# Etimadı doğrultmaq şərəf işi sayılır



Xəstəxanada maddi-texniki bazanın gündən-günə sıradan çıxması, müalicə korpuslarının və poliklinika binasının uzun illər təmir olunmaması, müasir laboratoriya və müayinə cihazlarının olmaması nəticədə dəmiryolçulara və əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə səbəb olur.

Nəhayət, xəstəxanadakı arzuolunmaz vəziyyətin davam etdiyini görən Azərbaycan Dəmir Yolları QSC-nin yeni rəhbərliyi çıxış yolunu kadr dəyişikliyində görüb. 2017-ci ilin fevralında Müşfiq Həsən oğlu Mirzəyev qısa vaxtda bu səhiyyə ocağındakı vəziyyəti kökündən dəyişmək tapşırığı ilə Mərkəzi Dəmir Yol Xəstəxanasının baş həkimi təyin olunub.

– Bu təyinat səhiyyə sahəsində yeni islahatlar dövrünə təsadüf etdi, – deyə baş həkim söhbətə başlayır. – Belə ki, respublika hökumətinin qərarı ilə xəstəxananın dövlət tərəfindən maliyyələşməsi dayandırıldı və səhiyyə ocağı təsərrüfat hesabına, yəni pullu xidmətə keçdi. Bundan sonra bir gün də ləngimək olmazdı və dərhal xəstəxanada əsaslı dəyişikliklər etmək lazım idi. İslahatlara başlamaq üçün işimizə ən böyük dəstək Maliyyə Nazirliyinin ilkin dövr üçün xəstəxanada çalışanlara əmək haqqına kompensasiya üçün vəsait ayırması oldu. Bununla yanaşı, xəstəxananın qısa vaxtda müasir səhiyyə xidməti müəssisəsi səviyyəsinə gətirmək üçün Azərbaycan Dəmir Yolları QSC-nin Həkim Sanitar Xidmətinə müraciət etdik.

Həkim Sanitar Xidmətinin rəisi Adil Şükürovun rəhbərliyi altında xəstəxanadakı vəziyyət ətraflı təhlil edilib konkret plan hazırlandı və səhmdar cəmiyyətin rəhbərliyinə təqdim edildi. Yarım əsrdə heç bir əsaslı təmir aparılmayan xəstəxanada yenidənqurma işlərinə başlamaq, tibbi xidmətin səviyyəsini yüksəltmək üçün müasir laboratoriya avadanlığı və müayinə aparatlarının alınması böyük maliyyə vəsaiti tələb edirdi. Vəziyyəti düzgün qiymətləndirən və bunun dəmiryolçulara səhiyyə xidmətinin səviyyəsini yaxşılaşdırmaq üçün çox vacib olduğunu bilən Azərbaycan Dəmir Yolları QSC-nin rəhbəri, Milli Məclisin deputatı Cavid Qurbanov maliyyə vəsaitinin ayrılmasına göstəriş verdi.

İlk gündən qarşıya qoyulan vəzifə ondan ibarət oldu ki, Mərkəzi Dəmir Yol Xəstəxanasının əvvəlki şöhrətini özünə qaytaraq. Bunun üçün üç əsas vəzifənin həyata keçirilməsinə nail olmaq lazım idi. Birincisi, xəstəxananın müasir laborator və müayinə avadanlığı ilə təmin edilməsi, ikincisi, həkim və orta tibb işçilərindən ibarət personalın yüksək hazırlıq səviyyəsi və üçüncüsü vətəndaşların müraciət edəcəkləri səhiyyə ocağının yerləşdiyi binanın yüksək tələblərə cavab verməsi. Bir tibb müəssisəsi olaraq biz bu üç məsələni eyni vaxtda realaşdırmalıydıq ki, insanlar bu səhiyyə ocağına inamla ayaq qoya bilsinlər.

***– Baş həkimin müavini vəzifəsində çalışarkən xəstəxanada ciddi problemlər olduğunu yaxşı bilirdiniz. Rəhbər vəzifəyə təyinat alanda tərəddüd etdinizmi?***

– Açığını deyim, təkcə bu vəzifəyə deyil, bütün vəzifə pillələrində çalışarkən ilk ağlıma gələn fikir ondan ibarət olub ki, mən dövlətimin, rəhbərliyin etimadını doğruldub ailəmin- ilk növbədə atam Həsən Mirzəyevin, mənsub olduğum nəslin şərəfini uca tuta bilərəmmi? Bu suala cavab verəndən sonra hansı addımı atacağıma qərar verirəm.

İnsan yeni vəzifəyə, həm də səhiyyə kimi xüsusi peşəkarlıq və məsuliyyət tələb edən sahəyə, özünü sınamaq üçün getməməlidir. Bu xəstəxanda çalışana qədər mən bir neçə dövlət və özəl səhiyyə müəssisələrində rəhbər vəzifədə çalışmışam və bu illər ərzində əldə etdiyim təcrübəmə arxalanıb bu təklifi qəbul etdim. Digər tərəfdən, hər bir vətəndaş ölkəsinə, Vətəninə hansı sahədə, hansı vəzifədə fayda verə biləcəyinə əmin olandan sonra bu addımı atmağa qərar verməlidir. Ümumiyyətlə, vəzifəyə təyinat alan adama etimad göstərilir. Əgər o insan etimadı doğrultmağı şərəf işi sayırsa, onun uğurlarına şübhə ola bilməz.

Bütün həyatım boyu yeniliklərə, quruculuğa meyilli adam olmuşam və bu həmişə mənə uğur gətirib. Təbii, bu yolda adam müxtəlif maneələrlə qarşılaşır, ancaq məramın işin, əməlinlə insanlara xidmət etmək, onların sağlamlığının qayğısına qalmaq, eyni zamanda rəhbəri olduğun kollektivin sosial rifahını daha yaxşı təmin etməkdirsə, layiq olduğun qiyməti alacaqsan.

Xəstəxana fəaliyyətə başladığı gündən indiyə qədər öz dairəsində bütün növ tibbi xidmət göstərən birləşmiş ambulator-poliklinika və stasionar müəssisə olmuşdur. Yəni, xəstəxana universal tibb müəssisə olmuşdur. Gecə-gündüz kompleks diaqnostikası, poliklinikası, ginekologiya və digər sahələri ilə 50 ildir ki, təkcə dəmiryolçulara deyil, yerləşdiyi qəsəbənin sakinlərinə də səhiyyə xidməti göstərir. Ancaq son illərdə 400 çarpayılıq xəstəxana 160 çarpayılıq olub və birinci dərəcədən ikinci dərəcəli səhiyyə müəssisəsinə enib. Ona görə də bu gün əsas məramımız vaxtilə birincilər sırasında olan xəstəxananı yenə ön sıralara çıxarmaqdır.

Qeyd etdiyim kimi, biz eyni vaxtda üç istiqamətdə islahatlara başladıq. İlk işlərimizdən biri ondan ibarət oldu ki, xəstəxanaya çox vacib olan Yaponiya, Hollandiya və ABŞ istehsalı olan müasir laboratoriya avadanlığı aldıq. Məlumdur ki, xəstəyə dəqiq diaqnoz qoymadan onu müalicə etmək mümkün deyil. Bu avadanlıq vasitəsilə bir çox laborator müayinələrin cavabları insan əli dəymədən, tam avtomatlaşdırılmış üsulla əldə edilir.

İnsan taleyi tapşırılan işdə səhvə yol vermək olmaz. Ona görə də dünya səhiyyəsinin müasir nailiyyətləri olan avadanlıqla yanaşı, həkimlərin yüksək hazırlıq səviyyəsi də mühüm rol oynayır. Biz çalışırıq ki, həkimlərimiz ən son tibbi nailiyyətləri, müalicə üsullarını öyrənmək üçün vaxtaşırı təkmilləşdirmə kurslarına getsinlər, biliklərini daim artırsınlar.

Üçüncü mühüm işimiz isə,



xəstəxana kompleksinin əsaslı təmirini həyata keçirməkdir. Bu istiqamətdə işlər sürətlə həyata keçirilir.

Bizim üçün əsas vəzifə bu korporativ şəbəkə daxilində vahid standartlar çərçivəsində səhiyyə xidmətinin təşkilidir. Yəni ilk gündən qarşıya məqsəd qoyulub ki, göstərilən tibbi xidmət günü-gündən təkmilləşdirilsin, xəstəxananın struktur bölmələri yenidən qurulsun, modernləşdirilsin, vətəndaş arxayın şəkildə bura müraciət etsin və lazımi tibbi yardım, müalicə ala bilsin.

Müşfiq Mirzəyev xəstəxanın əsas kontingenti ilə bağlı fikirlərini açıqlayaraq qeyd etdi ki, əlbəttə, Azərbaycan Dəmir Yolu bizim əsas sifarişçimizdir və biz çalışırıq yarım əsr əvvəl əsası qoyulmuş xüsusi fəaliyyət istiqaməti kimi, istehsalat tibbini əvvəlki səviyyəyə çatdıraq. Sifarişçinin istehsalat tibbi üzrə göstərilən xidmətin keyfiyyətinin və tam spektrinin təmin olunması ilə bağlı qarşımıza qoyduğu tələblər bizi işimizi bu istiqamətdə təkmilləşdirməyə stimullaşdırır.

Hazırda xəstəxanamızda qeydiyyatda olan dəmiryolçuların hamısının sağlamlığına nəzarət edir, dispanser müşahidələri aparır və bununla da dəmir yollarında təhlükəsizliyin təmin olunmasına töhfə veririk. Ayrı-ayrı xəstəlikləri olan və risk qruplarına daxil edilən pasiyentlərlə xüsusi iş aparılır. Normativlərə uyğun olaraq Azərbaycan Dəmir Yolları sistemində çalışan vətəndaşların müayinəsini həyata keçirir, onların sağlam fəaliyyətinin təmin olunmasına nəzarət edirik.

Baş həkim söhbət zamanı bildirdi ki, pulsuz tibbi xidmət göstərilən kontingent əsasən Azərbaycan Dəmir Yollarında çalışan vətəndaşlardır. Lakin onların ailə üzvləri və ya təqaüddə olan dəmiryolçulara hələlik belə bir güzəşt nəzərdə tutulmur. Amma biz xəstəxanada yenidənqurma işlərini və tibbi-texniki təchizatı tam başa çatdırdıqdan sonra dəmiryolçuların yaxın ailə üzvlərinə və təqaüddə olan dəmiryolçulara güzəştli şərtlərlə tibbi xidmətin göstərilməsi ilə bağlı Azərbaycan Dəmir Yollarının rəhbərliyinə təkliflərimizi verəcəyik.

Xəstəxanada çalışan tibbi personalın sosial vəziyyətinə gəldikdə isə M.Mirzəyev bildirdi ki, indi həkimlərə və tibb işçilərinə orta aylıq əməkhaqqı 350-450 manat həddindədir. Ancaq xidmət pullu olduğu üçün həkim və tibb işçilərinin vətəndaşlara tibbi xidmətin həcmindən asılı olaraq əlavə ödənişlər də nəzərdə tutulur. Ümumiyyətlə, çalışırıq ki, həkimin və orta təhsilli tibb personalının orta aylıq əməkhaqqı 550-700 manatıdan yuxarı olsun.

Baş həkimlə söhbətimizi yekunlaşdırıb aparılan əsaslı təmir - tikinti və təchizat işləri ilə tanış olmaq üçün xəstəxananın bir neçə korpusuna baş çəkdik. Xəstəxananın həyətində baş həkim ilk qarşımıza çıxan qurğuya əlini uzadıb bildirdi ki, bu, 110 kilovattlıq elektrik generatorudur. Bunu ötən il quraşdırmışıq və indi tam araxayınıq ki, bizdə elektrik problemi yarana bilməz. 24 tonluq su çəni isə əsasən yanğın təhlükəsizliyi üçün nəzərdə tutulub. Ancaq ondan su təchizatında problem yarandıqda da istifadə edə bilirik.

Baş həkim məlumat verdi ki, xəstəxanada istilik sistemi tam yenidən quraşdırılmış və 4 korpusun hər birinə mərkəzləşdirilmiş qaydada istilik sistemi çəkilmişdir. Xəstəxananın ginekologiya şöbəsi əsaslı şəkildə tam yenidən qurulmuş və palatalarda yüksək standartlara uyğun şərait yaradılmışdır. Laboratoriya üçün nəzərdə tutulan otaqlar da tam hazır vəziyyətə gətirilmişdir və bu blokda da xəstələrə ən müasir xidmət göstəriləcək. Poliklinikada da son tamamlama işləri gedir və yaxın günlərdə həkimlər bu binaya köçürüləcək.

Baş həkim onu da əlavə etdi ki, səhiyyə ocağı öz görkəmi ilə ilk baxışdan xəstədə xoş əhval-ruhiyyə yaratmırsa, onu müalicə etmək çətin olur. Çalışmalıyıq ki, ən qısa zamanda həm ümumi görünüş, həm də xidmət səviyyəsi ilə, bura üz tutan insanlarda sağlam gələcəyə inam və ümid yaradaq.

**İlqar RÜSTƏMOV,**
**"Xalq qəzeti"**